Ədəbiyyat qəzeti

10 oktyabr 2020-ci il 9



Seymur ŞEYDAYEV

# Turan gəlir

*Kərküklərdən Altayacan,*
*Fərat çaydan dunayacan,*
*Baş kəndi Ötükən olan,*
*Dünyamızı quran gəlir.*
*Eşit məni, Türk dünyası,*
*Gözlədiyin Turan gəlir.*

*Doğuşundan at belində,*
*Şaman duası dilində,*
*Misri qılınc bir əlində,*
*Bir əlində "Quran" gəlir.*
*Gözün aydın, Türk milləti,*
*Gözlədiyin Turan gəlir.*

*Zəncanımda, Təbrizimdə,*
*Tanrı dağı ətəyində,*
*Yenidən Qıpçaq çölündə*
*Göy çadrını quran gəlir.*
*Gözün aydın, Türk milləti,*
*Gözlədiyin Turan gəlir.*

*Mayası Boz Qurddan gələn,*
*Metedən, Oğuzdan gələn,*
*Qılıncıyla öz möhtəşəm*
*Tarixini yazan gəlir.*
*Gözün aydın, Türk milləti,*
*Gözlədiyin Turan gəlir.*